Səh. 2 Milli snoblar – Azər Musaoğlu
Səh. 5 Zalqadan qeydlər – Afiq Muxtaroğlu
Səh. 5 Tərbiyə, yoxsa genetika – Esmira Ələkbərli
Səh. 6 Tələbənin kirayə ev problemi – Aytən Fətullayeva
Səh. 3 Övladlarımıza gözəl adlar verək – Hacı Bəkiroğlu
Səh. 4 MƏKTƏBLƏRİN ƏHATƏSİNDƏKİ YOLLAR ŞAGİRDLƏR ÜÇÜN NƏ DƏRƏCƏDƏ TƏHLÜKƏSİZDİR?
Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 AVQUST
2023-CÜ İL
№ 016 (187)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANDA KORONAVİRUSA YOLUXMA HALLARI ARTIR




Gürcüstanda COVID-19 virusuna yoluxma halları yenidən artır. Son bir həftə ərzində gündə orta hesabla 300-ə yaxın yeni yoluxma halları qeydə alınır.

Bu barədə Gürcüstanın İnfeksion Xəstəliklər Mərkəzinin direktoru Tengiz Tsertsvadze məlumat verib.

Onun sözlərinə görə, koronavirusa yoluxanların xəstəxanaya yerləşdirilməsi halları da artıb.

Direktor yeni növ Omicron – EG.5 virusunun Gürcüstan ərazisində qeydə alınması təhlükəsinin olduğunu bildirib, lakin bunun hələ rəsmən təsdiqlənmədiyini vurğulayıb.

T.Tsertsvadze indiki mərhələdə narahat olmağa əsas olmadığını, ölkənin Səhiyyə Nazirliyinin lazımi tədbirləri gördüyünü bildirib.

## ŞOVİDƏ TORPAQ SÜRÜŞMƏSİ NƏTİCƏSİNDƏ ÖLƏNLƏRİN SAYI 31-Ə ÇATIB



Gürcüstanın Raca-Leçxumi bölgəsinin Şovi kurortu ərazisində torpaq sürüşməsi nəticəsində itkin düşmüş daha 2 nəfərin cəsədi tapılıb. Bununla da təbii fəlakət qurbanlarının sayı 31-ə çatıb.

Bu barədə jurnalistlərə Gürcüstan Daxili İşlər Nazirliyinin Fövqəladə Halların İdarə Olunması Xidmətinin rəhbəri Temur Mqebrişvili məlumat verib.

Bildirib ki, tapılan şəxslərdən biri yeniyetmə, digəri isə orta yaşlı kişidir. Hazırda itkin düşmüş hesab olunan daha iki nəfərin axtarışları intensiv şəkildə davam etdirilir.

Xatırladaq ki, avqustun 3-də Oni bələdiyyəsinin Şovi kurort zonasında torpaq sürüşməsi nəticəsində 31 nəfər dünyasını dəyişib, 28 nəfər yaralanıb, daha 2 nəfər isə itkin düşmüş sayılır.

## GÜRCÜSTANDA HİV VİRUSUNA YOLUXANLARIN SAYI 10 MİN NƏFƏRİ ÖTÜB

Bu ilin yanvarın 1-dən avqustun 22-dək Gürcüstanda 400 nəfər HİV virusuna yoluxub. Bu barədə Gürcüstanın QİÇS və İnfeksion Patologiya, Kliniki İmmunologiya Mərkəzi məlumat yayıb.




Məlumatda bildirilib ki, cari il avqustun 22-nə olan statistikaya əsasən, hazırda Mərkəzdə 10 min 170 HİV xəstəsi qeydiyyatdadır. Onlardan 7604 nəfəri kişilər, 2566-sı isə qadınlardır.

Xəstələrin böyük əksəriyyəti 29-39 yaş arasında olan insanlardır.

Ən çox xəstə paytaxt Tbilisidədir – 3830 nəfər. Onların da 100 nəfəri xarici ölkə vətəndaşıdır.

Bu il 96 HİV xəstəsi dünyasını dəyişib. Onların da 74-ü kişi, 22-si qadındır.

Ölkə üzrə 129 uşaq HİV-ə yoluxub, onların 76-sı oğlan, 53-ü qız uşağıdır.

QİÇS 4340 xəstə arasında inkişaf edib, 1734 nəfər dünyasını dəyişib.

Hazırda 6284 nəfər müalicə olunur, onların da 41-i uşaqdır.

## 27 OKTYABR GÜRCÜSTANDA MİLLİ MÜƏLLİM GÜNÜ ELAN EDİLİB

Gürcüstan hökumətinin qərarı ilə oktyabrın 27-si Milli Müəllim Günü olaraq qeyd olunacaq. Hökumət bu qərarı avqustun 30-da baş tutan iclasda qəbul edib.

Hökumət administrasiyasının yaydığı məlumatda qeyd olunub ki, ictimaiyyətdə müəllimlərin roluna diqqət yetirilməsi, onların qiymətləndirilməsi və müəllim peşəsinin əhəmiyyətinin daha da yüksəldilməsi üçün gürcü pedaqoq, Gürcüstanda elmi pedaqogikanın təsisçisi, publisist, uşaq yazıçısı və ictimai xadim İakob Qoqebaşvilinin doğum günündə – 27 oktyabrda Milli Müəllim Günü qeyd olunsun.

“Bu tarixlə əlaqədar hər il ictimaiyyət və təhsil sisteminin inkişafında verdiyi töhfəyə görə gənc müəllimlərə Milli Müəllim Mükafatı, xüsusi hazırlanmış döş nişanı və 10 000 lari pul mükafatı veriləcək”, – məlumatda qeyd olunub.




Xatırladaq ki, dünyanın 100-dən çox ölkəsində Beynəlxalq Müəllimlər Günü oktyabrın 5-də qeyd olunur.



# MİLLİ SNOBLAR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

“Sine nobilitas” – qısa olaraq: **snob**.

Snob olmayanların bu sözdən xəbəri var, uzun-uzadı burada izah etməyə lüzum görmürəm.

Snob olanlar, onsuz da, snob olduqları üçün mütləq quqlda axtarış aparacaqlar; bilmək üçün deyil, özünü bilirmiş kimi göstərmək üçün.

Axı snobların təbiəti məhz bu cür üzvi və qeyri-üzvi aləmdən ibarətdir. İntellektual səviyyələri qurşaqdan aşağı olsa da, zövqləri dadbilmə reseptorlarından və doyma siqnalının səs-küyündən ibarət olsa da snoblar özlərini yüksək intellektli, incə zövqlü hesab edirlər (hər halda özləri buna səmimi-qəlbdən inanırlar).

Snoblar çanaqlarından çıxıb ona yuxarıdan aşağı baxır, dəblə ayaqlaşmağa çalışır, aristokrat maneraları təqlid edirlər. Snoblar kreditlə bəyənmədiyi təbəqənin sürmədiyi (daha doğrusu, alıb sürə bilmədiyi) avtomobili alıb sürür (məsələn, “BMW X5”ə qaz quraşdırıb elə sürür); kreditlə son model ayfon alır, amma bir dəfə də olsun görmürsən ki, kontur ala, zəng edə, qiyməti 5 399 larilik “iPhone 14 Pro Max”la “zəng buraxır”; toylara təkcə kostyum-şalvar geyinir, qalstuk taxır və imkanlıların, biznesmenlərin, pulluların, deputatların oturduğu masada oturur, məclisdə bu cür masa tapmayanda, uzaqbaşı, müəllimlərin yanında özünə yer edir; siqaretin ən bahalısını alıb aylarla ciblərində gəzdirirlər, “kruqa” düşəndə çıxarıb çəkirlər...

Bir sözlə, snoblar siqaret çəkməkdən maşın sürməyə, restoranda yemək yeməkdən mədəni tədbirlərdə iştirak etməyə qədər hamısını özlərini üstün, elit, intellektual təbəqəyə aid olduqlarını göstərmək, gözə soxmaq, təsəvvür yaratmaq üçün edirlər.

Amma danışdırsan özləri özlərini ifşa edəcəklər. Başında üç dənə intellektual biti olmayan snob sənə istənilən sahədən məlumat verəcək, istənilən mövzudan treninq keçəcək; şair-yazıçı olacaq, rəssam olacaq, bəstəkar olacaq, rejissor olacaq, dirijor olacaq, siyasətçi olacaq, biznesmen olacaq, stamotoloq olacaq, ginekoloq olacaq, veterinar olacaq, kinoloq olacaq, arxitektor olacaq, arxeoloq olacaq, arxı babasının çəkdirdiyini sübut etməyə çalışacaq, nəslini aparıb Rza şahın nəslinə calayacaq, qısası, özündən başqa hamı olacaq, hamını təqlid edəcək, təkrar edəcək, tutuquşuluq edəcək, meymunluq edəcək, memuarlar yazacaq, yazıçılar birliyinə üzv olacaq, rəssamlar ittifaqına üzv olacaq, hər il sentyabrın 22-də fillərin müdafiə günü ilə bağlı tədbirdə iştirak edəcək, sonra da zooparkda fillərlə şəkil çəkdirəcək, saçının daz yerinə tük əkdirəcək və sair, amma özü olmayacaq ki, olmayacaq. Nə göründüyü kimi olacaq, nə də olduğu kimi görünəcək...

Ətrafımız milli snoblarla doludur. Məsələn, bu milli ünsürlər dincəlməyə ehtiyac duyduqlarına görə yox, bəyənmədikləri, yuxarıdan aşağı baxdıqları, nifrət etdikləri təbəqənin dincələ bilməməsi üçün hər yayı istirahət üçün dünyanın dörd tərəfinə səpələnirlər. Bu bədbəxt snoblar dadından ləzzət aldıqları üçün yox, bəyənmədikləri, yuxarıdan aşağı baxdıqları, nifrət etdikləri təbəqənin suşi, istridyə yeyə bilməməsi üçün bu zir-zibili yeyirlər. Bu təqlidçi varlıqlar estetik zövq almaq, istirahət etmək, ruhlarını qidalandırmaq üçün yox, bəyənmədikləri, yuxarıdan aşağı baxdıqları, nifrət etdikləri təbəqənin teatra, operaya, baleta gedə bilməməsi üçün gedirlər (Dəbə, markaya, etiketə səcdə edən snobların ruhu kristallaşaraq yalnız maddi toxunuşla, təmasla cuşə gəlir). Onlar biliklərini artıqmaq, öyrənmək, tanımaq, zövq almaq üçün yox, bəyənmədikləri, yuxarıdan aşağı baxdıqları, nifrət etdikləri təbəqənin kitab oxumadığı üçün kitab oxuyurlar (Düzü, oxuyub-oxumadıqlarını dəqiq deyə bilmərik, amma kitabla şəkil çəkdirib sosial şəbəkələrdə paylaşmalarının hamımız şahidiyik).

Bizim bu milli snoblar hər şeylə məşğul olmağa, hər şeyin dadına baxmağa, hər yerə getməyə canla-başla (əslində isə kor-koranə) hazırdırlar, təki bəyənmədikləri, yuxarıdan aşağı baxdıqları, nifrət etdikləri təbəqənin adamları o işlə məşğul ola bilməsin, o şeyin dadına baxa bilməsin, o yerə gedə bilməsin və sair.

P.S.

Məncə, snob sözünün dilimizdə izahını ən yaxşı “Obastan” onlayn lüğəti verib: bambılı, layiq olmadığı mövqeni tutan adam. Bu yazı da elə bambılı, layiq olmadığı mövqeni tutan adamlar – snoblar haqqında idi.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 18 FAİZ ARTIB




Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, bu ilin yanvar-iyul ayları ərzində Gürcüstanın xarici ticarəti 12097,6 milyon ABŞ dolları təşkil edib. Bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 18 faiz çoxdur.

Gürcüstanın xarici ticarətində ixracın həcmi 15,7 faiz artaraq 3 575,6 milyon dollar, idxalın həcmi isə 19 faiz artaraq 8522,1 milyon dollar olub.

Hesabat dövründə ölkənin xarici ticarət dövriyyəsində 4946,5 milyon dollar kəsir yaranıb. Bu da ümumi xarici ticarətin 40,9 faizini təşkil edib.

## ABİTURİYENTLƏRİN 31 %-İ FİZİKA, 20 %-İ KİMYA, 16 %-İ RİYAZİYYAT İMTAHANINDAN KƏSİLİB



2023-cü ilin vahid milli imtahanlarında ən çox abituriyent riyaziyyat və təbiətşünaslıq elmləri – fizika, kimya və biologiya imtahanından kəsilib. Bu barədə Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz məlumat yayıb.

**Fənlərə görə abituriyentlərin nəticələri aşağıdakı kimidir:**

• Fizika imtahanı – ümumilikdə 601 abituriyent imtahanda iştirak edib, onlardan 31 %-i minimal keçid balını aşa bilməyib.

• Kimya imtahanı – ümimilikdə 2540 abituriyent imtahanda iştirak edib, onlardan 19,5 %-i keçidi aşa bilməyib.

• Riyaziyyat imtahanı – ümumilikdə 14927 abituriyent imtahanda iştirak edib, onlardan 15,75 %-i keçidi aşa bilməyib.

• Biologiya imtahanı – ümumilikdə 3439 abituriyent imtahanda iştirak edib, onlardan 14,7 %-i keçidi aşa bilməyib.

• Tarix imtahanı – ümumilikdə 20714 abituriyent imtahanda iştirak edib, onlardan 5,5 %-i keçidi aşa bilməyib.

• Coğrafiya imtahanı – ümumilikdə 1913 abituriyent imtahanda iştirak edib, onlardan 8 %-i keçidi aşa bilməyib.

• İngilis dili imtahanı – ümumilikdə 36793 abituriyent imtahanda iştirak edib, onlardan 4 %-i keçidi aşa bilməyib.

• Gürcü dili və ədəbiyyatı imtahanı – ümumilikdə 39074 abituriyent imtahanda iştirak edib, onlardan 3 %-i keçidi aşa bilməyib.

*Mənbə: bm.ge*

## “GEORGİAN WİNGS” TBİLİSİ-BAKI-TBİLİSİ İSTİQAMƏTİNDƏ AVİAREYSLƏR HƏYATA KEÇİRƏCƏK




Gürcüstanın “Geosky” aviaşirkətinin törəməsi olan “Georgian Wings” beynəlxalq uçuşlara başlamağa hazırlaşır, onun ilk istiqaməti Azərbaycan olacaq. Bu barədə aviaşirkət məlumat yayıb.

Məlumata görə, sentyabrın 6-dan Tbilisi-Bakı-Tbilisi istiqamətində aviareyslər yerinə yetiriləcək. Uçuşlar həftədə üç dəfə – çərşənbə, cümə və bazar günləri həyata keçiriləcək. Amma biletlər hələ satışa çıxarılmayıb.

İndiyə qədər Tbilisi-Batumi-Tbilisi marşrutu ilə həftədə 12 dəfə uçuşlar həyata keçirən “Georgian Wings” bu günlərdə 70 sərnişin tutumlu, İtaliya-Fransa istehsalı olan ATR-72 markalı təyyarə alıb. Bu da aviaşirkətə parkını böyütməklə daxili reyslərdən beynəlxalq reyslərə keçməyə imkan verəcək.

# GÜRCÜSTAN AZƏRBAYCANLILARI İLHAM ƏLİYEVƏ MÜRACİƏT EDİBLƏR



Gürcüstanda yaşayan etnik azərbaycanlılar Azərbaycan prezidenti İlham Əliyevə müraciət edərək insanların gedib-gəlməsi üçün iki ölkə arasında quru sərhədlərin açılmasını xahiş ediblər. Petisiya Gürcüstanın hüquq müdafiəçisi, etnik azərbaycanlı Samirə Bayramovanın təşəbbüsü ilə hazırlanıb və sosial şəbəkələrdə yerləşdirilib.

Hüquq müdafiəçisi qeyd edib ki, mindən çox insanın imzaladığı bu petisiyaya təkcə Gürcüstandan olan azərbaycanlılar deyil, Azərbaycanda yaşayan gürcülər də qoşulur.

*"Artıq 3 ildir pandemiya ilə əlaqədar Gürcüstan və Azərbaycan sərhədi bağlıdır. Həm dost, həm strateji dövlət olmaqdan başqa hər iki ölkəni mənəvi birləşdirən insan faktoru var. Gürcüstan azərbaycanlılarının Azərbaycan vətəndaşları və qeyri Azərbaycan vətəndaşları ilə yaxın qohum və ailə münasibətləri olduğu kimi, eyni zamanda Azərbaycan vətəndaşlarının da Gürcüstan vətəndaşları ilə eyni yaxın münasibətləri var. Uzun illərdir sərhədlərin bağlı olması bu bağlara mənəvi olaraq ciddi ziyan vurur.*

*Bununla yanaşı, hər iki ölkə vətəndaşları biznes, iqtisadi əlaqələr quraraq sosial və iqtisadi rifahlarını qarşılayırdılar. Pandemiyadan sonra bir çox ölkələr iqtisadi krizis yaşayır və bu, Gürcüstanda regionda yaşayan şəxslər üçün öz ağır təsirini qoydu və qoymaqdadır. Xüsusən Gürcüstan azərbaycanlıları üçün Azərbaycan məsafə, dil baxımından ən yaxşı seçimdir, onlar bu üstünlüklərdən istifadə edərək öz güzəranlarını müxtəlif kiçik biznes və iş yolları ilə stabilləşdirə bilirdilər"*, – müraciətdə deyilir.

Azərbaycanın bütün qonşu dövlətlərlə quru sərhədləri üç ildən artıqdır (2020-ci il martın 24-dən) ki, vətəndaşlar üçün bağlıdır.

Dünyanın əksər ölkələrində koronavirusla bağlı karantin tədbirləri çoxdan ləğv edilsə də, Azərbaycanda karantin rejimi hələ də qüvvədə qalır. Sonuncu dəfə iyunun 23-də Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə xüsusi karantin rejiminin müddəti 2023-cü il oktyabrın 2-dək uzadılıb.

Prezident İlham Əliyev özü sonuncu dəfə ötən ilin iyununda karantin və quru sərhədlərinin bağlanmasından danışıb.

***"Bizim quru sərhədlərimiz bağlıdır və bağlı olmalıdır. Nə üçün? İnsanlar xəstələnməsin. Çünki ən çox bu xəstəliyin yayılma istiqaməti quru sərhədləridir. Ona görə biz sərhədlərimizi bağlı saxlayırıq və düz də edirik.***

***Nə qədər lazımdırsa, o qədər də sərhədləri bağlı saxlayacağıq – quru sərhədlərindən söhbət gedir. Bunu edirik ki, insanların sağlamlığını qoruyaq, insanları itirməyək",*** – deyə İlham Əliyev bildirib.

Petisiyanın dərci ərəfəsində Samirə Bayramova feysbukda da Azərbaycan və Gürcüstan sərhədində müşahidə etdiyi mənzərə haqda yazıb və qeyd edib ki, məhz bu gördükləri onu Azərbaycan prezidentinə müraciət etmək təşəbbüsü ilə çıxış etməyə vadar edib.

*"Dünən "Qırmızı Körpü" sərhəd məntəqəsində bir nəfər Azərbaycan vətəndaşı çarəsiz şəkildə əlindəki pasportunu göstərərək "buradan 500 metr məsafədəki vətənimə gedə bilmirəm" deyib ağlayırdı. Neçə gündür aclıq və yorğunluqdan halsız vəziyyətdə qalan bu adam bir müddət divara söykənib hüznlü şəkildə dizlərini qucaqlayıb oturdu. Pulsuzluğun, kimsəsizliyin acısını çəkib, insan yaradılışına nifrət edirdi. Yaxındakı taksi sürücüləri onu dinləyib sakitləşdirməyə çalışırdı. Amma nə fayda, kimsə onun dərdinə çarə ola bilməyəcəkdi.*

*Kənardan bu səhnəni görmək ağır idi. Cəmiyyətdəki yuxarı və aşağı təbəqənin yaratmış olduğu şəraitdən əziyyət çəkən çarəsiz insanlar. Təəssüf olsun ki, ona heç mən də kömək edə bilmirdim. Ona baxıb halıma və düşdüyüm vəziyyətə şükür edirdim, ona baxıb öz dərdimi unutdum. Mənim heç olmasa qayıtsam, qalmağa yerim vardı, o hara gedəcəkdi, neyləyəcəkdi?!*

*Bir müddət sonra baxdım ki, yoxdur. Hara getdiyini görmədim, böyük ehtimalla oradan keçən maşınlara minib özü də bilmədiyi yerlərə getmişdi.*

*Bəzən çox çarəsiz qalırıq, əlimizdən heç nə gəlmir və adamın vicdanı sızlayır. Bütün gecə gözümə yuxu getməyib. Səhərə yaxın əlimdən gələ biləcək bir ideya ağlıma gəldi – bu vəziyyətdə olan insanlara kömək üçün rəsmi müraciət, bəlkə səsimizə səs verələr"*, – hüquq müdafiəçisi yazıb.

*Mənbə: jam-news.net*

# ÖVLADLARIMIZA GÖZƏL ADLAR VERƏK



**Hacı Bəkiroğlu**

hacihaciyev@hotmail.com

Ailə qurmağın əsas məqsədlərindən biri də övlad sahibi olmaqdır. Çünki Hz. Peyğəmbərin ifadəsiylə desək, uşaq qəlblərin meyvəsi və gözün nurudur. Onları halal qazancla bəsləmək, oxutmaq, tərbiyəli və əxlaqlı yetişdirmək, zamanı gəlincə uyğun biriylə evləndirmək, təhlükələrdən qorumaq, yaxşı bir insan olmaları üçün onlarla maraqlanmaq ana-ataların əsas vəzifələrindəndir. Bu vəzifələrin ilki isə uşağa gözəl bir ad verməkdir. Uşağa veriləcək adın onun həyat yolunda böyük bir əhəmiyyətə sahib olduğunu xatırlayaraq inancımıza, mədəniyyətimizə, adət-ənənələrimizə, tarixi şəxsiyyətlərimizə uyğun və gözəl mənası olan adlar verməyə diqqət yetirməliyik.

Hz. Peyğəmbər bir hədisində buyurub: "Uşağa gözəl ad vermək, dinini öyrətmək və vaxtı gəlincə evləndirmək övladın atası üzərindəki haqlarındandır" (Əbu Nuaym). Başqa bir hədisdə isə buyurub: "Siz qiyamət günündə öz adlarınız və atalarınızın adlarıyla çağırılacaqsınız. Elə isə (uşaqlarınıza) gözəl adlar qoyun" (Əbu Davud, Ədəb, 68).

Ad qoyularkən diqqət yetiriləcək xüsus bu adın mənasının gözəl, başqaları tərəfindən yadırğanılmayacaq və alçaldılma səbəbi olmayacaq bir ad olmasıdır. Qoyulacaq adların ərəbcə olmasına və ya Quranda keçən adlardan olmasına ehtiyac yoxdur. Övladlarımıza müsəlman olduqlarını xatırladacaq, dini və milli dəyərlərimizə uyğun, anlamlı adlar verilməlidir. Psixoloqlara görə, uşağa verilən adlar eyni zamanda uşaq üçün bir xitabdır. Adların mənalarının uşağın şəxsiyyətinin inkişafında əhəmiyyətli bir yeri vardır.

Yenə də psixoloqların fikirlərindən sitat gətirəsi olsaq bunları yaza bilərik: "Adla əlaqədar duyğusal təsirlər uşaqlar üzərində etiketləndirmə təsiri göstərir. Psixologiyadakı təbirlə stiqmatizasiya, yəni damğalamaq düşüncəsini meydana gətirir. Bunun üzərinə uşaq ucaldılan bir ada sahibdirsə ona uyğun rollar və mövqelər alıb bu şəkildə reaksiyalar verir. Hadisələr arasında ona uyğun məna bağları qurur. Bunun nəticəsində də sahib olduğu adı özünə uyğunlaşdırma halına gətirir. Bu səbəblə uşağa ad vermək əslində ona "belə ol" deməkdir. Uşağa vurmaq, döymək, qırmaq kimi aqressiya ehtiva edən adlar vermək risklidir. Məsələn, oğlan uşağıdırsa – hirsli olmağa təşviq edir; qız uşağıdırsa – onun kişi kimi davranmasına səbəb olur. Bu xüsusiyyətlər səbəbiylə uşağın cinsiyyəti nəzərə alınaraq ad verilməlidir". Çünki adlar insanlar üzərində təsir və təlqin gücünə malikdir. Ehtimalla bu təsirə görə Hz. Peyğəmbər (s.ə.s.) adlar üzərində israrla durmuş, yalnız cahiliyyə dövründən qalan pis mənalı adları deyil, heyvan, əşya və məkanlarla əlaqədar bəzi pis məna verən adları da dəyişdirmişdir (Əbu Davud, Ədəb, 68-69).

Bu gün cəmiyyətimizdə meydana gələn əsas hadisələrdən biri insanların baxdıqları teleseriallardakı fiqurların adlarını övladlarına vermələridir. Bu xüsusda valideynlər bu rola olan simpatiyaları səbəbi ilə bu adları verirlər, ancaq bu adların hansı mənanı verdiyinə, bölgədəki tələffüzünün qarşılığının nə olduğuna diqqət etmirlər. Bu səbəblə də yuxarıda da qeyd etdiyimiz kimi, türk, rus və ya hər hansı bir xalqa məxsus olan filmlərdə səsləndirilən və izləyicinin xoşuna gələn xarakterin adının uşağa verilməsi onun cəmiyyətdə alçaldılmasına, lağlağı halına gəlməsinə də səbəb olur.

Əziz valideynlər, özümüzün o qədər gözəl milli, dini və tarixi adlarımız varkən başqa mədəniyyətə, başqa mənalara gələn adların övladlarımıza verilməsinə nə ehtiyac var axı?

## MƏKTƏBLƏRİN ƏHATƏSİNDƏKİ YOLLAR ŞAGİRDLƏR ÜÇÜN NƏ DƏRƏCƏDƏ TƏHLÜKƏSİZDİR?




Məktəblərdə tədris ili tezliklə başlayacaq. Məktəbin əhatəsindəki avtomobil yollarında piyada şagirdlərin, müəllimlərin və vaideynlərin hərəkət etməsi nə dərəcədə təhlükəsizdir? Gürcüstanda məktəbin yol zonası təhlükəsizliyinin planlaşdırılması necə olur və necə olmalıdır?!

Bu haqda "Yol təhlükəsizliyi üçün tərəfdaşlıq" qeyri-hökumət təşkilatının rəhbəri İrakli İzoria danışıb:

**– Cənab İrakli, ilk növbədə uşaq və yeniyetmələr arasında baş verən yol-nəqliyyat hadisələri ilə bağlı son statistik məlumatları bizə bildirin.**

– Qeyd edim ki, Gürcüstanda yol-nəqliyyat hadisələri nəticəsində xəsarət alan və ölənlərin sayı kifayət qədər yüksəkdir. Son illərin göstəricilərinə görə, yol-nəqliyyat hadisələri nəticəsində 430 nəfər dünyasını dəyişib, 7 517 nəfər xəsarət alıb. Ancaq bu məlumatlar hələ də şərtidir, izah edəcəyəm. Çünki bunlar yalnız qeydə alınmış halların statistikasıdır. Məktəb yaşlı şəxslərin statistikasına gəldikdə isə, qeyd edim ki, ümumilikdə bütün ölkə miqyasında 2022-ci ildə 12 uşağın/yeniyetmənin ölüm faktı qeydə alınıb, 874 nəfər isə yaralanıb.

**– Məktəb zonalarında nəqliyyat baxımından Gürcüstan və Avropanın inkişaf etmiş ölkələri arasında fərq nədir?**

– Təəssüf ki, biz özümüzü məktəb zonaları müəyyən edilmiş standartlara tam uyğun olaraq planlaşdırılmış Avropanın heç bir inkişaf etmiş dövləti ilə müqayisə edə bilmərik. Niyəsini izah edim. Gürcüstanda "məktəb zonası" anlayışı qanunvericilik səviyyəsində yoxdur. Bu məsələ yalnız kimin və ya kimlərinsə istəyinə bağlıdır. Şərti olaraq, bələdiyyələr beynəlxalq standartlarla rəhbərlik edirlər, ya yox – bu onların istəyinə bağlıdır. Bizim fond üç ildir məktəb zonalarının tətbiq edilməsi proqramı üzərində işləyir, 100-ə yaxın məktəb və bağçada məktəb zonamız var. Gürcüstan Yol Departamenti, Tbilisi və Zuqdidi bələdiyyələri bu prosesə fəal qoşulmuşdular. Yol təhlükəsizliyinin planlaşdırılması da məktəbin yerləşməsini nəzərə almaqla olmalıdır. Eləcə də, əgər məktəb tikilirsə mərkəzi yol və tranzit yollarda yerləşməsi məqsədəuyğun deyil.

**– Deyə bilərsinizmi, təcrübədə məktəbin yol zonası təhlükəsizliyinin planlaşdırılması necə olmalıdır və bu prosesə kim qoşulmalıdır?**

– Hər məktəbin fərdi yerləşməsi var, buna uyğun olaraq, ümumi istifadə olunan yanaşma yoxdur. Beynəlxalq yanaşmalara görə, məktəb zonasında hərəkət etmək sürəti 30 km/saat sürətdən çox olmamalıdır. Sürətə nəzarət edilməlidir, müvafiq video kameralarla nəzarət olunmalıdır, uşaqlar üçün təhlükəsiz keçid quraşdırılmalıdır. Eləcə də məktəb zonalarının quraşdırılması üçün təlimatlar mövcuddur. Məsələn, biz "Qlobal küçələr təşəbbüsü" tərəfindən maliyyələşdirilmiş dərsliyin (Designing Streets for Kids) hazırlanmasında iştirak etdik. Dərslik yollarda uşaqların yol təhlükəsizliyinin planlaşdırılması ilə bağlıdır. Bu dərslik küçə planlaşdırmasının layihədən başlayaraq maraqlanan tərəflərin iştirakına qədər keçəcəyi mərhələləri nəzərə alır. Qeyd etdiyim kimi, iştirak hərtərəfli olmalıdır və bütün prosesdə bələdiyyə, eləcə də Təhsil Nazirliyi, mülki təşkilatlar, digər maraqlanan tərəflər iştirak etməlidirlər.

**– Dövlətin "məktəb zonaları"nın planlaşdırılması siyasəti baxımından hansı inkişafı var və gələcəkdə nə edilməlidir?**

– Bir halda ki, məktəb zonaları və ümumiyyətlə, uşaqların yol təhlükəsizliyi BMT-nin qlobal (2021-2030) planının bir hissəsidir, dövlətlər bu istiqamətdə işləməyə diqqət yetirməyə məcburdurlar. Gürcüstanda artıq inkişaf var, çünki son üç il ərzində müxtəlif bələdiyyələrdə pilot məktəb zonaları tətbiq edildi. Eləcə də Gürcüstan Yol Departamenti məktəb zonalarında 30 km/saatlıq sürət məhdudiyyətlərini tətbiq etməyə çalışır. "Ehtiyatlı ol, uşaqlar var" yol nişanını daha çox məktəbin qarşısında görürük.

Məsələn, Zuqdidi bələdiyyəsi bütün məktəblərin qarşısında məktəb zonası quraşdırıb, Tbilisidə isə bu proses davam edir. Qeyd edək ki, bu prosesə Gürcüstanın bütün bələdiyyələrinin qoşulması və təcrübələrini bir-biri ilə bölüşməsi mütləqdir.

**– Şagirdlərin valideynləri məktəb zonalarının qurulması prosesinə necə qoşulmalıdırlar, övladlarının təhlükəsiz hərəkət etməsi üçün nəyə xüsusi diqqət etməlidirlər?**

– Öz təcrübəmizdən deyim. Məktəb zonalarını araşdıranda müxtəlif məktəblərdən çox sayda valideyn bizimlə əlaqə saxladı, bizə məlumat verdilər və müvafiq məlumatları bələdiyyələrə çatdırdıq. Bu validyenlərin fəallığının da nəticəsi idi. Eləcə də valideynlər uşaqlarla yol təhlükəsizliyi prosesinə qoşulmalıdırlar. Çünki uşaqlarda müvafiq bacarıqlar inkişaf etməlidir. Uşaqların və ya yeniyetmələrin mobil telefonla danışan və ya sms yazan, qulaqcıqlarla musiqi dinləyən zaman yol keçməməsi mühümdür. Küçəni həmişə keçid vasitəsiylə keçməlidirlər. Əgər uşaq velosipedlə hərəkət edirsə, mütləq təhlükəsizlik dəbilqəsindən istifadə etməlidir. Gecə hərəkət edən zaman mütləq açıq rəngli geyimdən və ya işığı əks etdirən vasitələrdən istifadə olunmalıdır.

## BU AKTİVLİKLƏR GƏLƏCƏK BİRİNCİ SİNİF ŞAGİRDLƏRİNİN YAZMAĞI ÖYRƏNMƏSİNƏ KÖMƏK EDƏCƏK – VALİDEYN VƏ MÜƏLLİMLƏR ÜÇÜN HAZIRLIQ NÜMUNƏLƏRİ



2023-2024-cü tədris ilində minlərlə uşaq birinci sinif şagirdi olacaq. Bu, əlbəttə, xüsusilə valideynləri sevindirir. Onlar da uşaqlar kimi səbirsizliklə ilk tədris ilinin ilk gününü gözləyirlər. Ancaq onu da bilirlər ki, il problemsiz ötüşməyəcək. Məhz buna görə yayın sonuncu ayı valideynlər üçün də yüklü olur. 6 yaşlı uşağı məktəbə necə hazırlayaq? Yazı, hesablama, yaxud akademik nitqin öyrədilməsi prosesində valideynin yardımı asan deyil.

Tbilisinin 21 saylı ictimai məktəbinin təcrübəli birinci sinif müəllimi və sinif rəhbəri Salome Donadze məhz bu məsələlər barədə danışıb:

**– İlk növbədə, deyərdiniz, gələcək birinci sinif şagirdlərinin valideynləri övladlarını əvvəlcədən şagirdliyə hazırlamalıdırlarmı?**

– Əksər hallarda valideynlər hesab edirlər ki, əvvəlcədən əlifbanın öyrədilməsi, uşağın tədris prosesinə qoşulması üçün ilkin oxuma bacarıqlarının inkişaf etdirilməsi mütləqdir. Ancaq bu belə deyil və əsas olan diqqətdən kənarda qalır. Əksinə, psixoloqların əksəriyyəti məktəbə gedənə qədər uşağa yazıb-oxumağı öyrədilməsini düzgün hesab etmirlər. Çünki sonradan təhsil prosesi şagirdə maraqsız və bezdirici ola bilər. Əsas uşağın məktəbə, gələcək sinif rəhbərinə və müəllimlərə qarşı müsbət yanaşması olmalıdır. Valideynlər uşaqda təhsil prosesinə maraq oyatmalı və öz, uşaq dilində ona məktəbə getmək, təhsilə ehtiyac duymağı açıqlamalıdırlar. Onların gücü ilk növbədə məhz bu istiqamətə yönəlməlidir. Valideynin dəstəyi ilə uşaq məktəbdə özünü rahat hiss etməlidir, qalanı isə, əlbəttə, sinif rəhbəri və müəllimin kompetensiyasından asılıdır.

**– Gələcək birinci sinif şagirdi məktəbə gedənə qədər nəyi bilməlidir?**

– Gələcək birinci sinif şagirdi haraya və niyə getdiyini mütləq bilməlidir. Həftədə 5 gün belində çanta ilə məktəbə niyə getməlidir, məktəbə getməkdə məqsəd nədir və bu ona hansı firavanlığı verəcək. Böyüklər uşaqlara bu sualların hamısına dolğun və adekvat cavablar verməlidirlər. Bu şəkildə öz övladlarının məktəbə hazırlanmasına dəstək olmalıdırlar. Təhsil müəssisəsinə ilk dəfə gedənə qədər uşaq özünə qulluq etməyi, fərdi gigiyenanı qorumağı, tualetdən istifadə etməyi, əl-üzünü yumağı bacarmalıdır. Bu mərhələ üçün onun dərk etmək və dinləmək bacarıqları da formalaşmış olmalıdır. Diqqətini toplamalı, özünü və emosiyalarını idarə etməli, əməkdaşlıq üçün hazır olmalıdır. Kiçik və böyük motor bacarıqları inkişaf etməlidir. Bu baxımdan xüsusi ehtiyacı olan şagirdlərdə tələblər fərqlidir. Psixoloq və xüsusi müəllimin dəstəyi ilə onların ehtiyacı müəyyən edilir və təhsil prosesində müvafiq şərait yaradılır.

**– Birinci siniflərə yazını öyrənməkdə kömək edəcək və valideynin də asan şəkildə yararlana biləcəyi aktivlikləri bizimlə bölüşün.**

– Canlandırılmış əlifba strategiyasından istifadə edirəm. Hər yeni hərflə tanışlıq zamanı şagirdlərə tapşırıram ki, gürcü əlifbasının hərflərini canlı varlıqlar olaraq təsəvvür etsinlər və onların rəsmini çəksinlər. Nəticədə qeyri-adi işlər əldə edirəm. Uşaqların fantaziyasının həddi yoxdur! Siz bizim qalereyada hörümçəyə çevrilmiş "ლ", "ð" görə bilərsiniz. Onların insan kimi əlləri və gözləri də var. Qanadlı "ß", quyruqlu "ð", qulaqlı "ღ", taclı "ზ" və s. ilə rastlaşa bilərsiniz. Bəzi hərflər dənizdə qaralır, bəzisi skeytbordla gəzir, bəzisi şagird kimi parta arxasında əyləşib, bəzisi mahnı oxuyur, rəqs edir və sair.

Hekayə yazmaq strategiyasını öyrənirik. Hərflərin müəyyən qismini öyrəndikdən sonra onlardan istifadə etməklə mən və şagirdlərim birlikdə kiçik hekayələr yaradırıq və lövhədə yazırıq (valideynlər kağızdan istifadə edə bilər). Bəzən bu aktivliyə tam 35 dəqiqə lazım olur. Növbəti dərsdə lövhədən köçürmə üzərində işləyirik. Başdan, əlbəttə, çox səhvlər olur, ancaq müəllimin düzgün yanaşması və dəstəyi ilə hər şey yaxşılığa doğru dəyişir. Lövhədən köçürülmüş mətni mövzuya uyğun illüstrasiyalarla istəklərinə uyğun yazırlar (nəticədə çox rəngli və təsirli dəftərləri olur). Bəzisi bütün mətni köçürməyə bilər və bu facíə deyil. Hamısından fərdi imkanlarına uyğun şəkildə tələb etməliyik. Zamanla isə nəticə yaxşılaşacaq.

Ardıcıl müzakirə strategiyası aktivliyimiz var. Müzakirə üçün məsələləri seçin, məsələn, dostluq, xeyirxahlıq, xoşbəxtlik və s. Uşaq onların hamısının nəyi nəzərdə tutduğunu izah edir, öz təcrübəsi ilə əlaqələndirir və bundan sonra şifahi yolla hazırlanmış məsələni yazılı şəkildə hazırlayır. Yazı prosesində başdan müəyyən çətinliklər yaranır, ancaq bu aktivlikdən əksər hallarda istifadə edəndə müsbət nəticə görəcəyik və övladınızın səmimi, birbaşa və məntiqli yazıları sizi heyrətləndirəcək. Bununla yanaşı isə unutmamalıyıq və daim tələb etməliyik ki, təmiz və gözəl yazsınlar, çünki bizi ilk növbədə kalliqrafiya, sonra isə onların düşüncələri cəlb edir.

*Səhifədəki məlumatlar "edu.aris.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# ZALQADAN QEYDLƏR



Zalqa (Tsalka) – bizimkilər buranı Barmaqsız adlandırırdılar – dəniz səviyyəsindən təxminən 1500 metr yüksəklikdə yerləşən, Kvemo Kartili bölgəsinə daxil olan kiçik bir rayon mərkəzimizdir. Bizim Qardabanla müqayisədə havası xeyli sərindir. Nə az, nə çox 9-10 dərəcə fərq var. Gecəni rahat yatırsan.

Zalqa müalicə üçün reanimasiyaya yerləşdirilmiş xəstə misalında bir yerdir. Yarıuçuq, dörd divarından başqa heç nəyi olmayan, ağzı günə baxan evlərə hər küçədə rast gəlmək mümkündür. Küçə demiş, Zalqanın küçələri bu kiçik şəhəri eninə-uzununa düz xətlərlə bölür. Uzaqdan şəhərin panoramasına baxınca bu düzxətlilik ilk baxışda nəzərə çarpır.

Düzdür, Zalqanın hər guşəsində tikinti-bərpa işləri gedir, xarabalığa dönmüş evlərin ayağa qaldırılması, onlara ikinci həyat verilməsi prosesi başlayıb. Ölüm yatağındakı xəstə kəfəni yırtıb.

Zalqa dillər çələngidir. Gürcü, türk, erməni, Azərbaycan dillərində danışanlara hər yerdə rast gəlinir. Yeri gəlmişkən, rayonun yunanlar, ermənilər, gürcülər və azərbaycanlılar yaşayan kəndlərinə keçdikcə bu rəngarəngliyi daha tez hiss edirsən. Turizmin inkişafı Zalqanın dil çələnginə əlavə rənglər qatır. Turizmin inkişafını bu kiçik qəsəbədəki otellərin çoxluğu da təsdiqləyir.

Zalqanın dini palitrası rəngarəngliyi ilə diqqətini o saat cəlb edir. Pravoslav gürcülərlə, yunanlarla yanaşı qriqorian ermənilər, müsəlman acarlarla müsəlman azərbaycanlılar, üstəgəl müsəlmanlığını xristanlığa dəyişmiş acarlar iç-içə, yan-yana yaşayırlar.

1828-1829-cu illər Osmanlı-Rusiya müharibəsindən sonra buralara Osmanlıdan ermənilər və dilləri türk, dinləri xristian olan yunanlar köçürülmüş, ayrı-ayrı kəndlərdə yerləşdirilmişdir. Bu uzaq XIX əsrin 30-cu illərində baş vermiş, bir tərəfi Rusiyanın istəklərinə bağlı miqrasiya prosesi idi, bu, onun Osmanlıya qarşı yeritdiyi, eləcə də Cənubi Qafqazda yerini bərkitməyə hesablanmış siyasətinin tərkib hissəsi olmuşdur.

Ötən əsrin 90-cı illərində gürcülərin berzen, türklərin rum, rusların qrek, bizim yunan adlandırdığımız, özlərinə ellin deyən bu toplumun yeni bir köçü də baş verdi. Yunanlar bu dəfə Gürcüstandan Avropaya – Yunanıstana və Kiprə üz tutdular. Rusiyaya da köç edənlər oldu.

Avropaya köç edən yunanlar yerli əhali ilə qaynayıb qarışa bilmədilər. Niyəsini bilirik. Yunan dilini bilməyən bu yunanlar öz tarixi torpaqlarında ögey övlada çevrildilər. Onların bir çoxu Avropada yel əsib, qoz töküldüyünü düşünürdülər. Amma yanılmışdılar. İndi onlardan bir çoxu əlləri ətəklərindən uzun geriyə – Gürcüstana dönürlər.

Sözarası deyim ki, köçüb gedən yunanların boş evlərinə acarlar, azərbaycanlılar və qeyriləri yiyələniblər. Yiyələniblər deyəndə də birtəhər çıxmasın, həmin evləri yunanlar satıb, onlar da alıblar.

...Sən istəsən şamlıqda oturub uzaqları – mavisi gözoxşayan göy üzünü, Kiçik Qafqazın "Yallı" gedən, yaşılı uzaqdan belə könül rahatladan uca təpələrini, qəsəbənin sol əlində ağır yük altında tövşüyərək üzü yoxuşa dartınan, bu yerlərə bir qədər də köhnəlik boyası sürtən teplovozun ərşə yüksələn tüstüsünü seyr edib xəyallara dala, xatirələrə baş vura bilərsən.

Kafedral yunan kilsəsinin yanından ötüb şəhərin yeganə əyləncə parkına düşə, yelləncəklərdə yellənən, qışqırtılarıyla dünyanı yeniləyən uşaqları seyr edə, dəcəllik edən uşaqlarının hoqqalarından ləzzət alan iki ananın – gürcü qadınla azərbaycanlı xanımın günəbaxan tumunun qabığını yan-yörələrinə necə gəldi üfləmələrinə çiynini çəkməklə də olsa narazılığını bildirə, parkın mərkəzində ucaldılmış Şota Rustavelinin, elə onunla üzbəüz, küçənin o biri üzündə yunan müdriki Aristotelin büstü ilə söhbət edə bilərsən. Söhbət deyəndə də, onlara dünyanın gərdişi ilə bağlı suallar ünvanlayarsan, onların əsərlərində suallarına cavab axtararsan. O cavabları mütləq tapacağına da mən əminəm, sən necə?

Yayın qızmar istiləri arandan insanların dəstə-dəstə Zalqaya axışmasına səbəb olur. Zalqa imkansızlıqdan uzaq məkanlara gedə bilməyən aran camaatının yaylağına, istirahət düşərgəsinə çevrilir. Aran camaatının arasında bu il mən də vardım. Bir həftəlik Zalqa səfərindən bu qeydləri edə bildim. İraq üzünüzdən, "Füzuli dərd əlindən dağa çıxdı, Dedilər, bəxtəvər yaylağa çıxdı" beytində deyilən kimi, qəfil xəstələnməyim bundan artığını yazmağa imkan vermədi.

**Afiq MUXTAROĞLU**

# TƏRBİYƏ, YOXSA GENETİKA



Uşaqlıqda qonşuların davası lent kimi xəyalımdan keçir. Fərqində olmadığım cümlələr beynimin yaddaş kartında qalıb. Qoca qonşunun cavan qonşuya dediyini xatırlayıram: "Qanına tüpürüm, bala, qan xarab qandır. Nəslindəki üç dönə gerki babana oxşamısan, o da səni kimi nataraz danışardı. Yadıma gəlir o qoca, nə baban, nə atan səni kimi nataraz deyil..."

Kimsənin fərqində olmadığı cümlələrimiz var ki, hərəsi bir elm, hərəsi bir nəzəriyyədir. İndi edəcəyim analiz də məhz yaddaş kartımın arxivindədir.

Özünə oxşamayan balalarıyla nə qədər adamlar tanıyırıq. Xarici görünüşü demirəm, o bir yana, əməliylə, kimliyiylə... Adını da qoyuruq ki, xımı xarabdır, müəllimlər də bayraq qaldırır ki, valideyn düzgün tərbiyə etməyib. Əsla!

Elm deyir ki, bütün əlamətlərin məcmusu genetika adlanır. Onun fenotipi xarici əlamət, genotipi isə daxili əlamətdir. Gen xəritəsində nələrimiz yoxdur? Yeddi nəsil keçidi şəcərə adlanır. Biz yeddi nəslin genini rəsmən daşıyırıq. Baxışımızdan yerişimizə, danışığımızdan əməlimizə – hamısı həmin gen fondunun buraxılışıdır. O əlamətlər sanki bizi özümüzə təqdim edir. Olmaq istədiyimiz isə özümüz deyilik, müvəqqətidir. Məsələn, mədəni bitki kimi tanıdığımız bitkilər və yabanı bitkilər. Meşə zoğalı xırda, iri tumlu (daha kefiyyətli) olur. Onu gavalı ilə hibridləşdirirlər, nəticədə iri, gavalı görünüşlü, lətli zoğal alırlar. Əgər həmin zoğalın tumunu yenidən əksən mütləq əvvəlki dədə-baba halına qayıdacaq, cır olacaq. Bax, gen öz işini gördü (geni belə dəyişdirmək bitkilərdə sort, heyvanlarda cins adlanır).

İnsanlar da belədir. Hər kəs düşdüyü mühitin rənginə uyğun don geyinir. Çalışırıq ətrafdakı insanlara özümüzü mədəni, alicənab, ziyalı göstərək. İstəməsək belə, etdiklərimiz var, çünki mühit tələb etdiyini edirik. Amma zaman gələndə qanımızda – genimizdə olan oluruq.

Yəqin əqrəblə tısbağanın dostluğunu bilirsiniz. Çayı keçmək istəyən əqrəbə tısbağa deyir ki, apararam, amma sancma. Çayı keçərkən əqrəb elə çayın ortasında sancır. Tısbağa deyir ki, niyə sancdın, indi özün də batacaqsan. Əqrəb deyir bacarmadım, xislətimdə var. Bax, həmin xislətdir illər öncə Bakıda şir saxlayan ailənin qurban olması və s. Çünki parçalama, sancma genlərində var.

Gələk insanlara. Ailələr var ki, valideynlər – nümunəvi, övlad – bədəsil. Ailələr də var ki, ailə ailə deyil, amma nümunəvi uşaqları var (nənəm beləsinə deyərdi: yəqin ciləyində varmış).

Mən adamlar tanıyıram ki, nə qədər özünü ziyalı kimi aparmağa çalışsa da, hiss edirsən ki, onun içindən gəlmir. Roldadır. Özü deyil. Adamlar da var ki, həyat onu qəddarlaşdırır, amma içində bir nəciblik, duyğusallıq ruhu var. Sadəcə passiv qalıb, inkişafı üçün şərait olmayıb. Genetikada dominant əlamətlər var, yəni üzdə olanlar; ressesiv isə gizli qalanlardır.

Sosial şəbəkələrdə bəzən kənddə-kəsəkdə pərdə arxasında elə istedadlı insanlara rast gəlinir ki, istedad bəzən çoban həyatında, fəhlə külüngündə itib gedir. Bax, o insanların şəcərəsində geriyə sayımda beşinci, yeddinci babaların fərqliliyi dominant olub. Bir sözlə, kimsə düşünməməlidir ki, mənim uşaqlarım tərbiyəli, istedadlı, kamallıdırsa səbəb mənim verdiyim tərbiyədir. Qəti etiraz edirəm! İnanmıram ki, hansısa valideyn övladını cinayətkar, tərbiyəsiz və s. görmək istəsin. Hamı övladının yaxşı olmağını istəyir. Hətta ən diqqətli ailədən belə layiq olmayan övlad çıxa bilər. Səbəb yalnız üstünlük təşkil edən həmin o dominant genlərdir – bizdən asılı olmayan təsadüfi seçilmiş genlər. Adını da qismət qoyuruq.

İki övladım var. Hər ikisi üçün ana bətnindən onlarla danışmışam. Bütün ola biləcək hər şeyi imkan daxilində onlar üçün etməyə çalışmışam. Vətən məhəbbətindən ləyaqətə, savaddan intellektə, səliqədən mədəniyyətə aşılamışam. Artıq böyüyüblər, yeniyetmə yaşlarındadırlar. Baxıram, eyni mühit, eyni valideynlər, eyni şərait, amma fərqli istiqamət, tamam fəqli. Nə qədər ortaq məxrəc yaratmaq istəsəm də təbiətin qanununu poza bilmirəm. İstedadlı, məntiqli, təfəkkürlü uşaqlar olsalar da xarakterləri çox fəqlidir. Yəni xasiyyət tərbiyə olunmur. Onunla böyüyür, onunla ölürsən.

Əgər biz həmin biologiyanın yüksək şüurlu canlısı homo sapiens – dərrakəli insanıqsa, deməli, özümüz özümüzü müsbətə yükləyə bilərik, əqrəblik etmədən. Ömür çox qısadır. Bu qısa zamanda genimizdən gələn pislikləri kənarlaşdırıb iradi olaraq yaxşı əlamətləri elə inkişaf etdirək ki, şəcərəmizin daim dominantına çevrilsin. Şəcərədən gələn genin səsini eşitmək, seçim etmək lazımdır. Yeddi nəslin şaxəsi isə hərtərəflidir.

P.S.

El arasında "qanında var" deyimi elə gendə var anlamındadır. Gen son onilliklərin nəticəsi, amma el deyimi yüz illərdən gəlir...

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# TƏLƏBƏNİN KİRAYƏ EV PROBLEMİ



Bu günlərdə abituriyentlər tələbə olduqlarını qeyd edirlər, baxmayaraq ki, onlardan bəziləri böyük problemlə üz-üzədir. Bir neçə gündən sonra dərslər başlayır, amma tələbələrin qalmağa hələ yerləri yoxdur. Hətta şəhər kənarında da mənzillərin qiyməti 70 faiz artıb. Ev sahibləri bir neçə aylıq kirayə haqqını əvvəlcədən tələb edirlər.

Hər ilin avqust-sentyabr aylarında regionlardan, kəndlərdən paytaxt Tbilisiyə tələbə adını yenicə qazanmış minlərlə gənc axın edir. Qəbul olduqları universitetlər üzrə qeydiyyatdan keçməyə gələn tələbələrin və onların valideynlərinin ilk qarşılaşdığı problem kirayə ev tapmaqdır.

Əsas problem ondan ibarətdir ki, ev sahibləri bir çox hallarda evlərini oğlanlara vermək istəmirlər, elanlarda ailəlilər və qızlar maraqlansınlar deyə qeyd edirlər. Bu da oğlanlara ev sahiblərinin etibarının daha az olmasını göstərir; oğlanların səliqəsiz olduqlarını, ev sahiblərinin evdə xoşagəlməz halların baş verəcəyini düşünməsindən qaynaqlanır.

Daha bir məqam evlərin qiymətlərindədir. Qiymətlər 1000-1500 lari arası dəyişir. Bir və ya iki tələbəyə, yaxud orta əməkhaqqı alan şəxsə ev kirayələmək maddi baxımdan mümkünsüzdür. Kirayə ev problemi ən böyük problemlərdən biridir, xüsusən də aşağı, orta əməkhaqqı alan insanlar üçün.

Universitetə başlayacaq rayondan gələn tələbə üçün Tbilisidə yaşamaq üzməyi bilməyən insanın dənizdə çabalaması kimi bir şeydir. Hər kəs hazırda ev axtarmağa başlayıb, ev kirayəsi ilə məşğul olan maklerlərlə əlaqə saxlayır. Onlar da ən azı 1000-1100 lari dəyərində evlər göstərirlər. Bu da büdcəyə uyğun deyil. Gürcüstanda orta əməkhaqqı alan bir ailənin gəliri heç bu qədər deyil.

Tələbələr daha çox otaqların sayı çox olan evlərə üstünlük verirlər. Bir otaqlı evlərə isə az müraciət olunur. Həyət evləri bina evlərinə nisbətən daha ucuzdur, amma tələbələrin əksəriyyəti həyət evində qalmaq istəmir. Səbəb olaraq həyət evini qızdırmaq probleminin olmasını və bina evinin daha rahat olmasını göstərirlər. Həyət evlərinin qiymətləri də əraziyə görə dəyişir. Qiymətlər evin təmirinə və əşyalarına görə də dəyişir. Təmirli evlərin qiyməti dollarla hesablanır. Məsələn, universitetə yaxın təmirli evlərin qiyməti 500-600 dollar arası dəyişir.

Bu gün tələbə olmağa hazırlaşan abituriyentlər feysbuk kimi sosial media platformalarında da kirayə ev axtarışındadırlar. Universitetlərə yaxın ərazilərdə kirayə evlərin qiyməti çox baha olduğuna görə hər kəs özünə otaq yoldaşı axtarır.

Tələbələrin çoxunun baha qiymətə ev kirayələməyə imkanı yoxdur. Ucuz evlər şəhər ətrafındadır. Uzaqdan isə universitetə vaxtında gəlib çatmaq olmur. Buna qalmış hər kəs öz evindən gəlib-gedər. Universitetlərə yaxın, şəhərin mərkəzində isə ucuz ev tapmaq mümkün deyil. Demirik ki, kirayə ev yoxdur. Var, amma bizə münasib olanı tapmaq çətindir. Ev axtaranda çətinlik çəkdiyimiz əsas məqamlardan biri evin universitetə və ya metroya yaxın olmasıdır.

Əgər Gürcüstanda sırf kirayə üçün binalar tikilsə, xaricdə tətbiq edilən layihələr ölkəmizdə də olsa kirayə ev axtaranlar üçün çox yaxşı olardı. Bəzən ev sahibləri elə şərt qoyurlar ki, normal yaşamaq üçün heç cür sərf etmir. Burada da xarici ölkələrdə olduğu kimi kirayə üçün binalar inşa olunsa çox vaxt sərf etmədən hər kəs özünə uyğun evi, mənzili, otağı rahat şəkildə tapa bilər, daha 15-20 gün ev axtarmalı olmaz.

**Aytən Fətullayeva**
*Qardabani 3 nömrəli ictimai məktəbin məzunu*



# HƏYATIMIZDA PULUN DƏYƏRİ

Həyatımızda pulun nə kimi rolu var? Həyat və pul arasında hansı əlaqələr mövcuddur?..

Hər birimiz "həyat" və "pul" sözünü müxtəlif cür mənalandırırıq. Belə ki, bəzi yaxınlarıma sənin üçün həyatın mənası nədir, bu həyatda məqsədin nədən ibarətdir deyə suallar verirəm. Aldığım cavablar həmişə müxtəlif olsa da həyatının mənasını ailəsində, övladlarında görənlərlə yanaşı pul, gəzmək, yeyib-içməkdə görənlər də üstünlük təşkil edir. Həyatdakı məqsədləri də fərqlidir: biznesə sahib olmaqdan tutmuş özü üçün yaşamağa qədər...

Pulun həyatımızda rolu böyükdürmü sualına aldığım cavablar isə, demək olar ki, hamısı eyni məzmundadır: "Pul varsa həyat da var; pulun varsa həyatda yerin böyükdür; həyatın mənasını mən pul adlandırıram" və sairə. Düzdür, pul çox şeydir, amma hər şey deyil.

Fikrimcə, əsl həyat, xoşbəxtlik pul, var-dövlət olmamalıdır. Pul ilə dəbdə olan geyimləri, maşınları, istədiyin evi ala bilərsən, istədiyin həyatı yaşaya bilərsən, amma əgər sən xoşbəxt, sağlam deyilsənsə pul buna kömək edəcəkmi? Pul bizim sağlamlığımızı, keçmişimizi, uşaqlığımızı, gəncliyimizi geri qaytara bilərmi? Əlbəttə ki, yox!

Əsl həyat var-dövlət, maşın, ev və sairdən ibarət deyil. Zaman heç bir vaxt bizi gözləməyib, gözləməyəcək də. Hər şeyi vaxtında etmək lazımdır. Pulun arxasınca deyil, xoşbəxtliyin arxasınca qaçaq. Mənim üçün də əsl həyat xoşbətlikdir. Çünki tanıdığım o qədər ailə var, kənardan durub baxan elə fikirləşir ki, şahzadə kimi yaşayırlar. Amma əslində elə deyil. Aralardakı məsafə qalxdıqca, yəni daha çox yaxından tanış olduqda anlayırsan ki, əslində heç nə göründüyü kimi deyil. Milyonlara sahib olanların çoxu heç də göründüyü kimi xoşbəxt deyil. Bir insan ki həyatı doya-doya yaşamırsa, həyatı boyu pulun arxasınca qaçırsa, o pulu yığıb saxlayırsa, xərcləmirsə, axı o pulun nə önəmi qaldı. Axı pul xərcləmək üçündür. Yüz də qazan, villan, milyonların olsun...

Artur Şopenhauerin ən sevdiyim ifadəsidir: "Dünyanın ən yoxsul insanı puldan başqa heç nəyi olmayandır". Əgər insan xoşbəxtdirsə onda ailəsini, dostlarını, ətrafındakı insanları da xoşbəxt etmək gücünə sahib olar. Ona görə də, biz həyatın içində hər hansı bir yeri deyil, öz yerimizi tapmalıyıq...

Düzdür, danılmaz bir gerçəklik də var. Biz pulu sevsək də, sevməsək də artıq ondan asılı olmuşuq. Babamın dediyinə görə, əvvəllər pul qazanmaq yolları çox çətin və az idi. Amma indi pul qazanmaq üçün birinci insanın özünün böyük istəyi olmalıdır. Əlbəttə ki, indi də asan deyil işləmək. Yəni istənilən insan bunun öhtəsindən gələ bilər deyə bir şey yoxdur. Deməklə deyil, göstərmək, əmək sərf etmək lazımdır. Deyildiyi kimi, "Allahdan buyruq, ağzıma quyruq" deyə bir şey yoxdur. Çünki pul tənbəlləri sevmir.

Həyatımızda pulun dəyəri də çoxdur. Maddi arzularımızı pulla həyata keçiririk. İnsanlar və pul arasındakı əlaqə danılmazdır və daima bir-biri ilə əlaqəlidir. Fikrimi Deyl Karneginin sözləri ilə bitirirəm: "Pullu insanlar üç cürdür: pulunun köləsi olanlar, pulunun dostu olanlar və pulunun ağası olanlar".

**Validə Fətullayeva**
*Qardabani 3 nömrəli ictimai məktəbin məzunu*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

## "KOROĞLU"NUN ESTETİK ALƏMİ

**Elizbar CAVELİDZE**

*(əvvəli ötən sayda)*

Tədqiqatın elə başlanğıcında qeyd etdim ki, "Koroğlu" nəsr və nəzmin bir-birini əvəz etməsi ilə, bir-biri ilə qarşılıqlı müqayisə olunmaqla yaranan qəhrəmanlıq eposu növünə məxsusdur. Qəhrəmanlıq eposunun bünyəsinin bu cür memarlığı Yaxın Şərqin folklorunda geniş yayılmışdır. Müvafiq olaraq bu iki qarşılıqlı fərqli təsvir strukturu bir bütöv bədii kətanı yaratdığından və eyni zamanda yenə də bu əsərin tədqiqatının əsas məqsədini təşkil edən etik-estetik məsələləri irəli çəkməyə cəhd edəcəyəm.

Əvvəlcə təhlil olunan eposun nəsr hissəsinə toxunaq. Lap elə başdan bəyan etməliyik ki, "Koroğlu"nun nəsr səviyyəsi təkcə Orta əsrlərin xalq yaradıcılığının tələblərini o qədər qane etmir, eləcə də o, bu gün də özünün sadəliyi ilə, süjetin inkişaf dinamizmi ilə oxucuları heyran edir ki, bu da bir növ bolluca qatılan dialoqları canlandırır, ən başlıcası, hadisələrin əmələ gəlməsinin ziqzaqvari yana, haşiyələrə çıxmaları ilə və gözlənilənin gözlənilməzliyi ilə sona yetməsi effekti ilə güclü, emosiyalı təəssürat oyadır.

Ümumiyyətlə, həyati reallığın nəzərə çarpdırılması xalq yaradıcılığı üçün mühüm olduğundan dialoq qəhrəmanlıq hadisələrinin nəql edilməsini xarakterizə edir. Təbiidir ki, "Kitabi Dədə Qorqud"da dialoq müəyyən yer tutur. Lakin bu əsərdə fikrin çatdırılması daha çox monoloq xarakteri daşıyır. "Koroğlu"da dialoq prinsipi ön plandadır və bunun vasitəsilə də qəhrəmanların can atma məqsədi yaranır. Bu eyni zamanda həmin fikrin çatdırılmasına təbiilik çaları verir. Başlıcası hər halda odur ki, yuxarıda qeyd etdiyim kimi, nəql bu vasitə ilə dinamikliyə və varlıq hissinə malik olur. Və ən başlıcası, bu verilən dialoqla və demək olar ki, əhəmiyyətsiz cizgilərlə insanın xarakteri və təbiəti aşkarlanır. Buna nümunə olaraq kiçik bir keçidi gətirmək istəyirəm. Rum paşası quyuya salınmış Koroğlunun dəlisi Bəlli Əhmədə ucadan deyir:

"– Hə... Mənə də Rum paşası deyərlər. Sənin o Koroğlunu bir Koroğlu eləyim ki, biri də yanından çıxsın.

Bəlli Əhməd güldü. Dedi:

– Paşa, Koroğluya kələ-kələlər nə eliyə bilib ki, sənin kimi kərtənkələlər nə eləsin?

Paşa özündən çıxdı. Əlini atdı böyük bir daşa ki, hərləyib salsın onun başına. Nə qədər zor verdi, gücü çatmadı. Hirsi soyudu. Dedi:

– Salardım daşı başına, elərdim səni xıncım-xıncım, ancaq lənət şeytana. Koroğlunun xatirinə, gərək o gəlincə səni saxlayam. Elə ki, o gəldi, onu da tutub, ikinizi də birgə öldürəcəyəm.

Bəlli Əhməd dedi:

– Paşa, Koroğlunu heç əhrimənlər tuta bilmir. İndi Koroğlu o qədər ölü oldu ki, sənin kimi dılğıra baş verdi?!

Paşa yenə hirsləndi. İstədi əlini atsın daşa. Ancaq daşın yekəliyini görcək, yenə hirsi soyudu. Dedi:

– Tutaram, tutaram. Buna Məhbub xanım tədbiri deyərlər. Səni quyuya salan, onu da salar. Onda danışarıq.

Paşa sözünü deyib, getdi" *(Bax: "Koroğlu", səh. 373; səh. 693).*

Gətirilən epizod hərtərəfli diqqətə layiqdir. Birincisi, özünün çevikliyi ilə novellaçının dəstxəttini bizə xatırladır. İkincisi, o, incə yumorla hopdurulmuşdur ki, bunu da Rum paşasının davranışı yaradır. Üçüncüsü, burada dəlinin sarsılmaz xarakteri və eləcə də Koroğluya qarşı möhkəm sədaqəti və nəhayət, Rum paşasının yelbeyinliyi, acizliyi, gücsüzlüyü və əsası laxlamış təkəbbürlüyü özünü büruzə verir.

Bu cür epizodların gətirilməsi "Koroğlu"nun yazılışının lakonikliyi üsulundan xəbər verir ki, bu barədə çox demək olar, lakin, düşünürəm ki, deyilənlər də kifayətdir.

Və yenə bir faktı irəlicədən qeyd etməliyəm ki, "Koroğlu" eposunu "Kitabi Dədə Qorqud" eposundan fərqli olaraq dini mürəbbilərin təsir izi təqib etmir. Onda nə şamanizm, xristianlıq, nə də islam, daha çox gözlənilən idi, əlamətləri nəzərə çarpır ki, bu da mənim fikrimcə, hər şeydən öncə abidənin nisbətən yeniliyindən və ya da mətnin dolğunlaşdırılmasının və üzərində işlənilməsininin yaxın variantından, yaxud Qafqaz xalqlarının ənənələri və qarşılıqlı dostluğu dini inancdan daha irəli çəkildiyi bir vaxtda bu abidənin ümumi Qafqaz əhəmiyyətindən xəbər verir. İllah da ki, bu janr spesifikliyinə görə izah edilə bilər ki, bu da haqq-ədalət uğrunda mübarizlərin və xeyirxah qaçaqların apardığı mübarizəsinin özünəməxsus xarakteri ilə şərtləndirilib.

"Koroğlu"nun mətni, ələlxüsus təbiət və zaman silsiləsinin təsviri zamanı yüksək bədiiliyi ilə seçilir və çaların ahəngdarlığı üsulu ilə klassik ədəbiyyat kətanını daha çox bizə xatırladır. Məsələn, möcüzə yaradan bulağı axtaran Rövşən (Koroğlu) "baxdı ki, bura elə çəmənzar, laləzar bir yerdir, gəl görəsən. Gül gülü çağırır, bülbül bülbülü. Elə bil ki, bu sıldırım qayanın üstündə bir bağça şəkli çəkilib, yetmiş iki qələmlə yetmiş iki rəng vurulub. Ortalıqda qoca bir ağac var, altında da Qoşabulaq durna gözü kimi qaynayır, göz yaşı kimi axıb, ətrafı süd gölünə döndərir" *(Bax: "Koroğlu", səh. 15-16; səh. 27).*

Bu möcüzəli Adəm bağından indi yazın gəlişinin belə verildiyi Çənlibelə keçək:

"Yenə də yaz ayları gəlmişdi. Çənlibeldə başqa bir aləm var idi. Hər tərəf ala, yaşıla bürünmüşdü. Elə idi, elə idi ki, gül gülü, bülbül bülbülü çağırırdı. O necə deyərlər, lalələr bənövşələrə göz vururdu, sıldırım qayalarda xınalı kəkliklər qaqqıldaşırdı. Bülbüllər Koroğlunun səsinə səs verirdi. Çənlibelin ətəklərində ot adam boyu qalxmışdı. Koroğlunun ipə-sapa yatmayan, qoruq-qaytaq bilməyən ayğırları ilxı ilə göy ota buraxılmışdı. Koroğlu bu yaz Dürətı da ilxıya qatmışdı. Dürat ola, çöl ola, xam dəli ayğırlar ola, olmuşdu dəlisoy bir şey. Day bir at ilə yol getmirdi. Qapışırdı, vuruşurdu, day, necə deyərlər ilxını götürmüşdü başına" *(Bax: "Koroğlu", səh. 484; 493).*

Qısası, burada gül gülü, bülbül bülbülü çağırdığı, kəkliklərin qaqqıllaşdığı, atların ipə-sapa yatmadığı bir zamanda yazın yetişdiyi an verilmişdir. Bir sözlə, yüksəliş, təbiətin canlanması və insanın oyanışı məqamıdır. Doğrudur, yuxarıda göstərilən çıxarışlarda bizə stereotip, möhkəm kəlmə rast gəlir: "Gül gülü, bülbül bülbülü çağırırdı", lakin bu cür möhkəm və stereotip kəlmələrin təkrarı Şərq xalqları, eləcə də klassik ədəbiyyat üçün xarakterikdir. Ən başlıcası odur ki, bu yazın gəlişinin mənzərəsi hec də reallıqdan üzülməmişdir, əksinə, məhz elə bu reallıqla oxucunu özünə cəlb edir, onu estetik duyğu ilə doldurur.

Əhəmiyyətlisi odur ki, bu təhlil olunan eposun yaradıcısı elə gücə malikdir ki, insani duyğunun (sevinc olsun, istərsə də kədər) elə dərinlikləri ilə və obrazlı ifadəsi ilə Orta əsrlər və bugünkü oxucunu verilən simalara soyuqqanlıqla yanaşmağa qoymur. Və illah da ki, o, insanı tamamilə bu duyğuların çevrəsinə qatır, onu özünə girov götürür və kədərin həmdəminə çevirir. Məsələn: "Elə bil ki, dəlilərin üstünə su səpdilər. Xanımlar hamısı başlarını aşağı saldılar. Koroğlu dönüb Nigara baxdı. Gördü, vallah, Nigar bir haldadır, bir haldadır ki, alma yanaqlar Səmərqənd kağızı kimi ağarıb. Ala gözlər bahar buludu kimi dolub. Yaqut dodaqlar bir dəqiqədə elə solub, elə bil lalədi, şaxtaya düşüb. Koroğlu elə istəyirdi ağzını açsın, Nigar xanım yerindən qalxdı. Nə Koroğluya baxdı, nə dəlilərə baxdı, yavaş-yavaş təpənin lap ucqarına gəldi. Bir Eyvaz gedən yollara baxdı, bir uzaqdakı başı qarlı dağlara baxdı. Saçından üç tel ayırıb, basdı mərmər sinəsi üstünə və dedi..." *(Bax: "Koroğlu", səh. 235; 258).*

Nümunələri yenə gətirmək olar, lakin düşünürəm ki, gətirilən çıxarışlar da kifayətdir ki, "Koroğlu"nun nəsr hissəsinin təsvir etmə və obraz yaratmanın dolğunluğuna inanaq.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 AVQUST 2023-CÜ İL
№ 016 (187)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## RAHİB MƏMMƏDOVUN XATİRƏSİ ANILIB




Avqustun 25-də Azərbaycanın Ağdam rayonunda Gürcüstanda baş vermiş təbii fəlakət zamanı insanları xilas edərkən qəhrəmanlıqla həlak olan cəsur azərbaycanlı əsgər Rahib Məmmədovun xatirəsi anılıb. Rahib Məmmədovun adını daşıyan Döyüş şöhrəti muzeyində keçirilən "Qəhrəmanlar unudulmur" adlı tədbirdə şəhid ailələri, müharibə veteranları, mədəniyyət və təhsil işçiləri, məktəblilər, kənd sakinləri iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlanıb.

Çıxış edənlər cəsur əsgər Rahib Məmmədovun mənalı və qəhrəmanlıqla dolu həyatından bəhs ediblər. Məlumat verilib ki, Rahib Gülmalı oğlu Məmmədov 1967-ci il avqustun 25-də Ağdam rayonunun Mahrızlı kəndində anadan olub. 1987-ci ildə hərbi xidmət keçdiyi Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində böyük fədakarlıq göstərərək təbii fəlakət zamanı 28 sakini seldən xilas edib və qəhrəmanlıqla həlak olub.

O, ölümündən sonra "Qırmızı Ulduz" ordeni ilə təltif olunub.

Təhsil aldığı Mahrızlı kənd tam orta məktəbi hazırda onun adını daşıyır. Məktəbin həyətində Rahib Məmmədov adına Döyüş şöhrəti muzeyi yaradılıb.

Bakının Xətai rayonunun Əhmədli yaşayış massivində Rahib Məmmədov adına küçə var. Gürcüstanın Çaladidi kəndində cəsur əsgərin abidəsi qoyulub.

Tədbirdə Rahib Məmmədova həsr edilmiş "Əbədiyyətə qovuşan ömür" adlı sənədli film nümayiş etdirilib.

Sonda iştirakçılar muzeylə yaxından tanış olublar.

## DƏRSLƏR SENTYABRIN 15-DƏ, YOXSA18-DƏ BAŞLAYIR? – TƏHSİL NAZİRLİYİNİN CAVABI

Gürcüstanın ictimai məktəblərində tədrisin başlaması və bitməsi tarixlərini "Ümumtəhsil haqqında qanun" tənzimləyir.

Rəsmi sənədə görə, "Gürcüstanın bütün ictimai məktəblərində tədris ilinin başlaması 15 sentyabr, sonu isə 15 iyun müəyyən edilib".

Bu il 15 sentyabr cümə gününə təsadüf edir. Buradan irəli gələrək, ictimaiyyətdə gözlənti yarandı ki, yeni tədris ili, ola bilsin, 15 sentyabrda deyil, 18 sentyabrda – bazar ertəsi başlasın.

Yeni tədris ili nə zaman başlayır – 15 sentyabrda, yoxsa 18 sentyabrda?

Məsələnin aktuallığından irəli gələrək, Təhsil və Elm Nazirliyindən tədrisin 18 sentyabrda başlaması ilə bağlı məlumatın həqiqət olub-olmadığını aydınlaşdırmağa qərar verdik.



Rəsmi qurumdan bildirdilər ki, **tədris ili 15 sentyabrda başlayacaq.** Tədris ilinin başlaması ilə əlaqədar tarixin dəyişdirilməsinə yalnız sentyabrın 15-nin istirahət və ya bayram günlərinə təsadüf etməsi halında yol verilir. Belə hallarda tədris ili sentyabrın 15-dən sonrakı ilk iş günü başlayır.

*Mənbə: etaloni.ge*

## "DARVAZ" ADLI KİTAB NƏŞR OLUNUB




Azərbaycan Aşıqlar Birliyinin (AAB) katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun "Darvaz" adlı kitabı işıq üzü görüb.

Müəllifin uzunillik zəhmətinin bəhrəsi olan bu kitabda Bolnisi rayonunun Darvaz kəndi haqqında tarixi-etnoqrafik oçerklər və folklor araşdırmaları yer alıb. "Bakı mətbəəsi" ASC-də yüksək poliqrafik tərtibatda işıq üzü görən kitabda, eyni zamanda, təkcə Borçalıda deyil, bütövlükdə Gürcüstanda ən böyük kəndlərdən biri olan Darvaz kəndinin tarixi simaları, Azərbaycan elminə və mədəniyyətinə sanballı töhfələr bəxş etmiş elm və sənət adamları, görkəmli maarif və səhiyyə işçiləri, Birinci və İkinci Qarabağ müharibəsində şəhid və qazi olmuş darvazlılar haqqında öçerklər və digər publisistik yazılara da geniş yer ayrılıb.

Bir kəndə həsr olunsa da, kitab Gürcüstanda yaşayan azərbaycanlıların tarixi, adət-ənənəsi və folklorunun öyrənilməsi baxımından qiymətli nəşrdir və geniş oxucu kütləsi ilə yanaşı, müvafiq elm sahələrinin mütəxəssisləri üçün də əhəmiyyətlidir.

## ŞİKAYƏT NƏTİCƏSİNDƏ 1498 ABİTURİYENTİN BALI DƏYİŞDİRİLİB



Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin məlumatına görə, 2023-cü ilin vahid milli imtahanlarında 128 440 nəticədən 4292 (3,34 %) şikayət olunub.

Ümumilikdə 1498 nəticədə dəyişiklik edilib, 1473 işə bal artırılıb, 25 nəticədə isə bal azaldılıb.

Bu il abituriyentlər ən çox gürcü dili və ədəbiyyatı imtahanı, ən az isə fransız dili imtahanının nəticələrini şikayət ediblər.

**Digər fənlərə gəldikdə isə şikayət edilmiş nəticələrin sayı aşağıdakı kimidir:**

- Gürcü dili və ədəbiyyatı – 1588;
- Tarix – 796;
- İngilis dili – 754;
- Riyaziyyat – 510;
- Biologiya – 228;
- Vətəndaş təhsili – 114
- Kimya – 60;
- Ədəbiyyat – 52;
- Ümumi qabiliyyət (Azərbaycan dilində) – 41;
- Fizika – 40;
- Ümumi qabiliyyət (erməni dilində) – 37;
- Coğrafiya – 29;
- Alman dili – 19;
- Rus dili – 15;
- İncəsənət – 7;
- Fransız dili – 2.

Mənbə: edu.aris.ge

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.